2 iyul 2021-ci il
№24 (8932)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# Azərbaycanda çox güclü kadr potensialı yaradılıb




## Prezident İlham Əliyevin iyulun 1-də Azərbaycan Televiziyasına verdiyi müsahibəsindən

Son illər ərzində Azərbaycanda çox güclü kadr potensialı yaradılıb. Bu sahəyə xüsusi diqqət göstərilir. Biz dövlət xətti ilə minlərlə gənci dünyanın aparıcı ali məktəblərində oxutmuşuq. Onların böyük hissəsi Azərbaycana qayıdıb və müxtəlif yerlərdə çalışır. Neft konsorsiumlarında çalışan azərbaycanlılar artıq bizim intellektual potensialımızın inkişafına xidmət göstərirlər. Kadr potensialı var, bu da investorları cəlb edəcək.

## Dörd medallı QƏHRƏMAN Azərbaycan MÜƏLLİMİ

Yaşı elə də çox deyil, 1991-ci il mayın 20-də anadan olub. Ancaq cəsarəti, qəhrəmanlığı, ən önəmlisi, vətənpərvərliyi ilə elində-obasında hörmət və ehtiramla göstərilir. Öyrətməyə olan marağı, ətrafındakılara fikrini qəbul etdirmə bacarığı, liderlik xüsusiyyətləri isə onu hərbi rəhbər - müəllim kimi məşhurlaşdırıb. Söhbət Salyanda 6 nömrəli tam orta məktəbdə hərbi rəhbər, baş leytenant, Vətən müharibəsi qəhrəmanı Murad Feyziyevdən gedir. O Murad Feyziyevdən ki, 3 dəfə yaralanıb, ancaq alın yazısına baxın ki, Vətən müharibəsinin ən çətin və ən şərəfli əməliyyatlarında iştirak edib. Döyüş yolu ermənilərin çox güvəndiyi, alınmaz qala hesab elədiyi məşhur “Betonluğ”un alınmasından tutmuş Şuşaya qədər uzanıb. Ötən həftə ölkəmizdə Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 103 illiyi qeyd edilib.

➩Ardı səh.6

## Rəqabətlilik naminə

Məlumdur ki, son illərdə inkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olublar. Bu qlobal tendensiya ölkəmizin ali təhsil sistemi qarşısında da mühüm vəzifələr qoyub. Ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi bu sahədə bir sıra layihələrin həyata keçirilməsini zərurətə çevirib. Ali təhsildə keyfiyyət dəyişikliklərinin əsasını qoyan bu layihələrin icrası cəmiyyət həyatının müxtəlif sahələri üçün milli kadrların yetişdirilməsi ilə yanaşı, gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə marağını xüsusilə artırıb. Bu məqsədlə də gənclərimizə aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması istiqamətində “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” hazırlanıb.

➩Ardı səh.8

## Uğurun açarı - peşədən başlanan yol

O gün onların günü idi, “məzun” olurdular. Bu il ikinci buraxılışına vida edən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi daha 423 tələbəsinə qürurla “məzunum” deyəcək. Daha 423 gənc iş yerlərinə, böyük şirkətlərə fəxrlə Azərbaycanda ən müasir, ən yenilikçi texniki peşə təhsili müəssisəsinin verdiyi təhsil sənədini göstərəcək.Həm Koreya standartlarına əsaslanan kurikulumla təhsil alan 323 nəfər, həm də ənənəvi texniki peşə təhsili proqramı əsasında bacarıqlara yiyələnən 271 nəfər o sənədi eyni alınacıqlığı ilə təqdim edəcək. Koreya standartlarına əsaslanan kurikulumla təhsil alan 323 nəfərdən biri Gülnarə Əliyeva Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində veb dizayner və proqram təminatçısı ixtisasını qazanıb. Bu, onun ikinci təhsilidir: “Azərbaycan Dillər Universitetində ərəbşünaslıq ixtisası üzrə təhsil almışam. Amma zamanın tələbinə uyğun olaraq İKT sahəsinə keçid etdim.

➩Ardı səh.3



### Həm əyləndilər, həm öyrəndilər

➩səh.6




### Məktəblilərimizin növbəti medal sevinci

➩səh.7



### Daha əlçatan, bərabər imkanlar

➩səh.8

# ADA Universitetində "Məzun günü" tədbirləri

## 2020-2021-ci akademik il üzrə 7 bakalavr və 5 magistr ixtisasından 474 yerli və xarici tələbə məzun olub



**ADA Universitetində 23-25 iyun tarixlərində 3 gün ardıcıl olaraq silsilə "Məzun günü" tədbirləri təşkil edilib. Mövcud pandemiya qaydaları nəzərə alınaraq İctimai və Beynəlxalq münasibətlər, Biznes, İnformasiya Texnologiyaları və Mühəndislik, eləcə də Təhsil fakültələri məzunlarının buraxılış günləri eyni gündə deyil, müxtəlif günlərdə və məhdud sayda qonaq və məzunun iştirakı ilə keçirilib.**



ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, 2020-2021-ci akademik il üzrə 7 bakalavr və 5 magistr ixtisasından 474 yerli və xarici tələbə məzun olub. Yerli tələbələrlə yanaşı, Belarus, Çili, Əfqanıstan, Gürcüstan, İran, Kolumbiya, Qazaxıstan, Nigeriya, Özbəkistan, Pakistan, Rusiya Federasiyası, Türkiyə və Türkmənistan da daxil olmaqla 13 ölkədən 17 xarici tələbə də bu il məzun adını qazanıb.

Buraxılış tədbirlərinin birincisi iyunun 23-də İnformasiya texnologiyaları və mühəndislik fakültəsinin tələbələri üçün keçirilib. Bu fakültənin təqdim etdiyi Kompüter elmləri, İnformasiya Texnologiyaları və Kompüter mühəndisliyi ixtisaslarından 87 tələbə məzun olub.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Mərasimdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, xalq olaraq 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə Böyük Qələbəyə imza atdıq.

Vətənsiz əsl xoşbəxtliyin mümkün olmadığını vurğulayan rektor, məzunları qələbəmizin qorunub saxlanılmasında səylərini artırmağa, bilik və bacarıqları ilə inkişafımıza töhfə verməyə səsləyib.

Mərasimin xüsusi qonağı Nəqliyyat, Rabitə, İnformasiya və Yüksək Texnologiyalar naziri Rəşad Nəbiyev bildirib ki, innovasiyanı sürətləndirən ən vacib amil yeni kəşflərdir. ADA Universiteti öz növbəsində elmi tədqiqatlara əsaslanan təhsil proqramı ilə bu prosesi dəstəkləyir. Nazir əlavə edib ki, məzunların fəaliyyəti ilə innovasiya mühiti daha da inkişaf edəcək.

24 iyun tarixində İctimai və Beynəlxalq münasibətlər, eləcə də Təhsil fakültələrində təhsil alan tələbələrin "Məzun günü" keçirilib.

Bu fakültənin təqdim etdiyi Diplomatiya və Beynəlxalq münasibətlər, Dövlət idarəetməsi üzrə magistr, həmçinin Beynəlxalq və İctimai münasibətlər ixtisasları üzrə bakalavr proqramlarından 179 tələbə məzun olub.

Təhsil fakültəsinin təqdim etdiyi Təhsil idarəetməsi və Təlim və tədrisin təşkili və metodikası üzrə magistr proqramlarından isə 21 tələbə məzun adını qazanıb.

Tədbirin xüsusi qonağı qismində çıxış edən Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev builki məzunların əvvəlkilərdən bir çox mənada fərqləndiyini deyib. Onların ərazilərimiz işğaldan azad edildikdən sonra ali təhsil müəssisələrindən məzun olan, eləcə də pandemiya dövründə təhsil alan ilk tələbələr olduğunu diqqətə çatdırıb.

Məzun günü tədbirlərinin sonuncusu iyunun 25-də Biznes fakültəsinin tələbələri üçün təşkil edilib. Biznesin idarəedilməsi və İqtisadiyyat ixtisaslarından 187 tələbə məzun olub.

Tədbirin xüsusi qonağı "PAŞA Holding"in Baş İcraçı direktoru Cəlal Qasımov məzunlar qarşısında çıxış edərək, onlara peşəkar karyeralarında uğur qazandıracaq dəyərli tövsiyələr verib.

Mərasimdə məzunlar adından Lalə Əsgərova (İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsi), Fatimə Keyseruxskaya (İctimai və Beynəlxalq münasibətlər fakültəsi), Nərmin Abdullayeva (Təhsil fakültəsi) və Pərvin Nəbili (Biznes fakültəsi) çıxış ediblər.

# Görkəmli elm xadimi Lütfi Zadənin xatirəsinin əbədiləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2450 nömrəli Sərəncamının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı şəhərinin Nəsimi rayonunda yerləşən Texniki-humanitar liseyə Lütfi Zadənin adı verilsin.

**2.** Bakı Şəhər İcra Hakimiyyəti Lütfi Zadənin Bakı şəhərində yaşadığı binaya (Əlövsət Quliyev küçəsi, 79) xatirə lövhəsinin vurulmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 30 iyun 2021-ci il*

# Təhsil naziri Həmkarlar İttifaqının yubiley döş nişanları ilə təltif olunub

İyunun 25-də təhsil naziri Emin Əmrullayev Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının (ATİAHİ) nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan Həmkarlar İttifaqları və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının keçdiyi tarixi inkişaf yolundan, həmkarlar ittifaqı üzvlərinin gördüyü işlərdən, təşkilatın beynəlxalq əlaqələrindən danışılıb.

Emin Əmrullayev Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi arasında səmimi əməkdaşlıq münasibətlərinin gələcəkdə daha da inkişaf etdiriləcəyindən əminliyini ifadə edib. Görüş zamanı Təhsil Nazirliyi və komitə arasında imzalanması nəzərdə tutulan 2021-2023-cü illər üzrə "Kollektiv Saziş"də öz əksini tapan məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşün sonunda təhsil naziri Emin Əmrullayev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Azərbaycan Həmkarlar İttifaqları — 115 il" və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının "ATİAHİ 100 il" yubiley döş nişanları ilə təltif olunub.

# Vətəndaşların videoqəbulu keçirilib

İyunun 25-də təhsil naziri Emin Əmrullayev Göygöl, Goranboy, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Kəlbəcər, Xocalı rayonları və Gəncə şəhərinin sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Qəbulda həmin bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının bölgüsü, həmçinin digər məsələlərə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# Uğurun açarı - peşədən başlanan yol

## 72 peşə təhsil müəssisəsindən 13 min 300-dən çox məzun



⇦ Əvvəli səh.1

Bunun üçün də mənə Bakı Dövlət Peşə Təhsil Mərkəzini tövsiyə etdilər. 1 illik təhsilin sonunda özümün də gözlədiyimin əksinə olaraq çox yaxşı nəticələrim oldu. Pandemiya şəraitinə baxmayaraq, lazım olan biliyi, təcrübəni əldə etdim. İşimiz kompüterlə olduğu üçün harada olmağımızdan asılı olmayaraq, öyrənməkdə heç bir çətinlik yaşamadıq. Mərkəzin yüksək texniki imkanları, müəllimlərin peşəkarlığı istənilən çətinliyin öhdəsindən uğurla gəlməyimizə kömək etdi".

### "Artıq istənilən şirkətin tələbini ödəyə bilərəm"

Mərkəzin daha bir məzunu Davud Qafarov da Koreya standartlarına əsaslanan kurikulumla təhsil alıb və artıq elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyorudur. O, əvvəllər də bu işlə məşğul olub. Usta yanında evləri işıqlandırmağın sirlərini öyrənib. Buna baxmayaraq, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində ona bilmədiyi bir çox yenilik öyrədiblər: "10 ilə yaxın iş təcrübəm vardı. Məktəbi bitirəndən işləyirdim. Usta yanında öyrənmişdim. Bu işin nəzəriyyəsini də bilmək istədim. Ona görə də bu Mərkəzlə bağlı məlumat topladım və təhsil almağa qərar verdim. Təhsil alarkən anladım ki, bura qəbul olunmaqla doğru qərar vermişəm. Rəqəmsal sistem haqqında, ümumiyyətlə, anlayışım yox idi, elektrik dövrələrində elektromaqnit relelərin, maqnit-buraxıcılarının və kontaktorların işini, ağıllı evlərdə istifadə edilən PLC sistemini bilmirdim. Yaxşı ki, burada təhsil aldım. İndi istənilən şirkətin tələbini ödəyə bilərəm".

### "Uğuru mənimçün əlçatan edəcək bacarığım olsun istədim"

Digər müsahiblərimizdən fərqli olaraq, İsa Rüstəmov IX sinfi bitirən kimi peşə müəssisəsinə üz tutub və ənənəvi proqrama əsaslanan texniki peşə təhsili proqramı əsasında təhsil alıb. Avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü ixtisasına yiyələnib. Onu buraya BDPTM-nin keçmiş məzunlarından biri yönləndirib: "IX sinfi bitirdikdən sonra oxumaqla deyil, işləməklə uğur qazanmaq istəyirdim. Uğuru mənimçün əlçatan edəcək bacarığım olsun istədim. Mərkəzin məzunlarından biri məni buraya yönləndirdi. Həm yaxşı öyrənib, həm də qısa müddətdə iş tapa biləcəyimi dedi. Mən də avtomobillərlə maraqlandığım üçün bu ixtisası seçdim. 3 illik təhsilim başa çatdı. Təkmilləşmək üçün insan daim öz üzərində işləməlidir. Mənim də buradakı təhsilimlə kifayətlənmək niyyətim yoxdur. Bizə BDPTM-də həm də öz üzərində işləməyi, daim inkişaf etməyi öyrətdilər. Mən də bunu edəcəyəm".

### "Biz mərkəzimizi layiqincə təmsil və təbliğ edən məzunlarımıza minnətdarıq"

Göründüyü kimi, məzunlar qarşılarına böyük məqsədlər qoyublar. Peşə mərkəzlərindən başlayan karyera nərdivanını pillə-pillə qalxacaqlar. Pillələrdə isə, sadəcə özlərini deyil, həm də peşə təhsilini və onlara seçdikləri peşədə təməl bilikləri qazandıran BDPTM-ni təmsil edəcəklər.Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru İdris Musayevin fikrincə, onlar artan nüfuzuna görə məhz layiqli təmsilçilərinə minnətdardırlar: "Peşə təhsili üçün mərkəzimizə müraciət edənlər burada təhsil alanların, yaxud BDPTM haqqında məlumatlı olanların tövsiyəsinə əsaslanıb. Bu da o deməkdir ki, insanlar digər kommunikasiya vasitələrindən çox öz yaxınlarına inanırlar. Biz Mərkəzimizi layiqincə təmsil və təbliğ edən məzunlarımıza minnətdarıq".

Direktor qeyd edib ki, 2020-2021-ci tədris ilində mərkəzdə təhsil alan 594 nəfərdən 423-ü məzun olur. O, ilk dəfə olaraq mərkəzdə yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisə başlanıldığını da vurğulayıb: "Hazırda nəqliyyat vasitələrinin texniki istismarı və kompüter sistemlərində proqramtəminatı ixtisaslarında 40 nəfər təhsil alır. Təhsilalanlar sırasında 35 ali təhsilli tələbə var. Mərkəzin tələbələri arasından 9 nəfər İkinci Qarabağ müharibəsində iştirak edib, medal və ordenlərlə təltif olunub. Mərkəzin bir tələbəsi Şəhriyar Qasımov döyüşlər zamanı şəhid olub".




İdris Musayev mərkəzin məzunlarına iş imkanı qazandıran əlaqələrindən də danışıb: "50-yə yaxın yerli və xarici şirkətlərlə müxtəlif layihələr və məşğulluq istiqamətində iş aparırıq. 2020-2021-ci tədris ilində məşğulluğun təmin olunması məqsədilə mərkəzdə ixtisasartırma və təlim kursları təşkil edilib və 250 nəfər bu kurslardan yararlanıb.

### BDPTM sənaye istiqamətində işçi qüvvəsinə olan tələbatın ödənilməsinə öz töhfəsini verəcək

BDPTM-də keçirilən buraxılış imtahanlarında iştirak edən "Auto Azerbaijan" MMC-nin İdarə heyətinin sədri Emil İsmayılov nəticələrdən razı qalıb. Tələbələrin bilik səviyyəsini yüksək qiymətləndirən iş adamı müasir dövrdə nəzəri biliklərlə yanaşı, praktiki bacarıqların təhsilin əsas hissəsi olduğunu vurğulayıb. O bildirib ki, Koreya standartları əsasında qurulan mərkəzdə hazırlanan ixtisaslı kadrlar sənaye istiqamətində işçi qüvvəsinə olan tələbatın ödənilməsinə öz töhfəsini verəcək.

### Peşəsinə uyğun ali təhsil almaq imkanı

Təhsil naziri Emin Əmrullayev isə, sadəcə BDPTM-nin məzunlarına yox, Təhsil Nazirliyinin tabeliyindəki 72 peşə təhsil müəssisəsinin 13 min 300-dən çox məzununa peşə təhsilinin gələcəyilə bağlı böyük vədlər verib: "Əmək fəaliyyətinizin böyük bir hissəsi işğaldan azad olunmuş yerlərdə yenidənqurma, bərpa işləri ilə bağlı olacaq. Bu, Azərbaycan üçün bir neçə 10 illiyi əhatə edəcək böyük layihədir".

Nazir son illərdə ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, məşğulluğun təmin edilməsi və keyfiyyətli əmək bazarının formalaşdırılması baxımından ixtisaslı işçi qüvvəsinin hazırlanması istiqamətində mühüm işlər görüldüyünü, bu istiqamətdə peşə təhsilinin xüsusi əhəmiyyətini vurğulayıb: "Peşə təhsili uzun illər ölkəmizdə ikinci dərəcəli qəbul olunsa da, dünyada gənclər hər zaman öncəliyi peşə təhsilinə verib. Əvvəlcə peşəyə yiyələnib, sonra ali təhsilə yönəlirlər. Doğrusu da məhz budur. Öncə peşə təhsilində praktik bacarıqlar qazanmaq, sonra ali təhsil alaraq həmin biliyi dərinləşdirmək daha doğrudur. Azərbaycanda bu sahədə ən böyük problem ondan ibarət idi ki, peşə təhsili dalan - bir tərəfi bağlı olan kanal olub. Uzun illər insanlar peşə təhsilinə gəlib, burdan heç yerə gedə bilməyiblər. Son illərdə baş verən ən böyük dəyişiklik ondan ibarətdir ki, artıq gənclər yüksək texniki peşə təhsili əldə edib müsabiqədənkənar ali məktəblərə qəbul oluna biləcəklər. Bu da peşə təhsilinə marağı ciddi şəkildə artıracaq. Çünki insanlar hansısa peşəyə yiyələnmək, peşələrinə uyğun ali təhsil almaq imkanı əldə edəcəklər. Peşə təhsili ilə ali təhsil biri-birindən ayrı yox, birini o birinin davamı olaraq görməliyik. Birindən digərinə keçidi təmin etməyimiz gənclərə əlavə imkanlar yaradır".

### Artıq məzunların 30 faizindən çoxu peşə təhsilinə gəlmək istəyir

Təhsil nazirinin sözlərinə görə, hər il peşə təhsilinə üz tutanların sayı artır. Artıq məzunların 30 faizindən çoxu peşə təhsilinə gəlmək istəyir: "Bunun səbəblərindən biri də peşə təhsili müəssisələrində yaradılan imkan - infrastrukturdur. Bu gün burada yaradılan imkan, öyrənmə resursu bir çox ali məktəbimizdə yoxdur".

Artan nüfuz artan tələbat deməkdir. Nazir gələcəkdə yaradılacaq yeni peşə təhsili mərkəzləri hesabına peşə təhsili alacaq tələbələrin sayının artacağını deyib: "Bakı Dövlət Peşə Təhsil Mərkəzinə oxşar modelli mərkəzlər Bərdə və Cəlilabadda da tikilib. Bərdə Peşə Təhsil Mərkəzi kifayət qədər böyük və maraqlı infrastruktura malikdir. Bu mərkəzin fəaliyyəti regionun iqtisadi inkişafına ciddi təkan verən amil olacaq. Hesablamalara görə, burada 1000 nəfər daimi təhsil ala biləcək. Ancaq 4000-ə yaxın tələbəni müxtəlif qısamüddətli kurslara cəlb edə biləcəyik. Cəlilabaddakı peşə təhsili müəssisəsi də oxşar model üzrə qurulub. Lənkəran və Bakı şəhərində 2 yeni peşə təhsil müəssisəsinin təməli qoyulub. Sumqayıtda da belə peşə təhsil müəssisəsi planlaşdırılır. Hesab edirik ki, peşə təhsil müəssisələrinin müasir standartlarla qurulması peşə təhsili almaq istəyənləri cəlb edəcək".

Emin Əmrullayev artım dinamikasında işəgötürənlərin əsas tərəf kimi peşə təhsili sisteminə cəlb edilməsinin rolunu da yüksək qiymətləndirib. Onun sözlərinə görə, işəgötürənlərin tələblərinə uyğun kadr hazırlığının aparılması nəticə etibarı ilə peşə təhsilinə marağın artmasına səbəb olub: "Mövcud statistika göstərir ki, mərkəzin məzunlarının 42 faizi təhsilini tamamladıqdan dərhal sonra iş tapır. Bu da bir sıra ali məktəblərin müvafiq göstəricilərindən yuxarıdır".

Təhsil naziri rəhbərlik etdiyi qurumun ümumtəhsil müəssisələrində start verdiyi və şagirdlərdə məktəbə maraq yaradan layihəsindən də danışıb: "Əhalisi böyük olan kəndlərə ən yaxın peşə təhsili müəssisəsi bir neçə on, hətta yüz kilometr aralıdır. Belə kəndlərdə çıxış yolu olaraq yeni layihəyə start verdik. Orta ümumtəhsil məktəblərində peşə təmayüllü siniflər yaratdıq. Layihəyə görə, ümumi orta təhsili tamamladıqdan sonra şagirdlər X-XI sinifdə akademik proqram üzrə yox, sırf peşə təhsili üzrə təhsil alır. Bu il 35 məktəbdə məzunlarımız var. Gələn il siniflərin sayını 60-dan yuxarı qaldırmağı planlaşdırırıq. Bu proqram tətbiq edilən məktəblərdə şagirdlərin IX sinifdən X sinfə keçmə faizi 7 faiz yaxşılaşıb. İlkin müşahidələrə görə, bu layihə məktəbə həvəsin artmasına səbəb olub, çünki indi məzmun onlar üçün maraqlıdır".

### Kim, hansı qapını açacaq?

Peşə təhsili artıq bir tərəfi bağlı kanal yox, təhsilin bir çox çıxışı olan, geniş imkanlar vəd edən bir pilləsidir. Hazırda bu pillədə duranlar yol xəritəsini müəyyənləşdiriblər. Buradan hara gedəcəklərini bilirlər. Təhsil aldıqları müəssisə onların qarşısında geniş imkanlar açıb. Məzunlarının əlinə nüfuzlu təhsil sənədi verib. Həmin sənəd bəziləri üçün universitetlərin, bəziləri üçün böyük şirkətlərin qapısını açan sehirli açara bənzəyir. Kim, hansı qapını açacaq?

"Məzun günü" deyilənlərdən görünür ki, bundan sonrası, sadəcə onların özündən asılıdır. Əllərində hər qapını açacaq açar, başlarında isə aldıqları peşənin bütün təməl biliyi. Bundan sonrası ancaq uğur vəd edir.

Uğurunuz bol olsun, peşə sahibləri!

**Ruhiyyə DAŞSALAHLI**

## Respublika fənn olimpiadalarının nəticələri barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

2020-2021-ci tədris ili üzrə həyata keçirilmiş məktəblilərin Respublika fənn olimpiadalarının nəticələrinin elan edilməsi məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2020-2021-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (nəticələrin siyahısı əlavə olunur).

**2.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin çoxaldılıb aidiyyəti struktur qurum və bölmələrə, yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını təmin etsin.

**3.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) əmrin “Azərbaycan müəllimi” qəzetində və Təhsil Nazirliyinin internet səhifəsində dərc edilməsini təmin etsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

*30 iyun 2021-ci il*

# Klassik irsə müasir baxış

## SABAH tələbələrinin ifasında “Pəri cadu” tamaşasının təqdimatı olub





İyunun 30-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) SABAH qruplarının tələbələri buraxılış işi kimi Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” əsərinin tamaşasını təqdim ediblər.

Tamaşanın təqdimatında təhsil naziri Emin Əmrullayev, nazir müavini Firudin Qurbanov və ADMİU-nun rektoru Ceyran Mahmudova iştirak edib.

Əvvəlcə universitetin qalareyasında rəssam və dizayner tələbələrin, məzunların əl işlərindən ibarət sərgiyə baxış keçirilib. Qonaqlar ADMİU-nun Vətən müharibəsi iştirakçılarına həsr olunmuş “Zəfər” lövhəsi ilə də tanış olublar. Bildirilib ki, Vətən müharibəsində universitetin 2-si əməkdaş olmaqla, 50-dən çox tələbə və məzunu iştirak edib. Onlardan 3 nəfəri şəhidlik zirvəsinə ucalıb, əksəriyyəti isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə medallarla təltif olunub.

Daha sonra ADMİU-nun SABAH qrupları tələbələrinin ifasında Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu” əsərinin tamaşası nümayiş etdirilib. Klassik irsə müasir baxış sərgiləyən tamaşa maraqla izlənilib.

Sonda çıxış edən təhsil naziri Emin Əmrullayev ADMİU-dakı yaradıcı mühitdən, nümayiş olunan tamaşadan məmnunluğunu ifadə edib və universitetin fəaliyyətində uğurlar arzulayıb.

# İqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır

**İyunun 25-də Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və İqtisadi Sosial İnkişaf (Economic Social Development, ESD) təşkilatının birgə təşkilatçılığı ilə “Davamlı inkişafın sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

## “Davamlı inkişafın sosial-iqtisadi problemləri” mövzusunda beynəlxalq elmi konfrans keçirilib

Konfransın açılışında çıxış edən UNEC-in prorektoru Sakit Yaqubov tədbirdə dünyanın bir sıra ölkələrinin (Almaniya, İspaniya, Xorvatiya, Polşa, Serbiya, Macarıstan, Rusiya, Belarus və s.) tədqiqatçıları ilə müzakirələr aparılacağını və qlobal çağırışların təhlil ediləcəyini bildirib.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, bugünkü konfrans çox mühüm bir mövzuya - Davamlı inkişafın sosial-iqtisadi problemlərinə həsr olunub.

Bildiyiniz kimi, bəşəriyyət qarşısında duran və son dövrlərdə daha da kəskinləşən qlobal problemlər dünyada davamlı inkişafa nail olunmasını zəruri vəzifəyə çevirib. Yer kürəsini gözləyən ekoloji və nəticə kimi sosial-iqtisadi sarsıntılardan qorunmaq üçün beynəlxalq səviyyədə davamlı inkişafa nail olunması üçün səylər birləşdirilməlidir.

Firudin Qurbanov bildirib ki, ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu və çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir. Bəlli olduğu kimi, bu, ölkə iqtisadiyyatının hərtərəfli, şaxələndirilmiş şəkildə inkişafını nəzərdə tutur. Burada neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması, beləliklə də, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı şəkildə inkişaf etdirilməsi başlıca hədəf kimi götürülür.

Bu gün Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə həssaslıqla yanaşan ölkələrdən olduğunu diqqətə çatdıran nazir müavini qeyd edib ki, bu, hər şeydən öncə Azərbaycan iqtisadiyyatının dayanıqlığına xidmət edən amildir. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin 2030 Gündəliyinə nail olmaq istiqamətinə sadiqliyini nümayiş etdirən ölkələr sırasındadır. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalamışdır. Eyni zamanda Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərini milli səviyyədə sürətləndirmək üçün atıla biləcək konkret siyasət və proqramlaşdırma addımlarını əks etdirən 2030 Gündəliyi naminə MAPS missiyasını həyata keçirən ilk ölkələrdəndir.

Bildiyiniz kimi, BMT-nin 70-ci Baş Assambleyasında Davamlı inkişaf üzrə Sammit çərçivəsində 2030-cu ilə qədər “Davamlı inkişaf sahəsində Gündəlik” qəbul olundu ki, burada davamlı inkişafın 17 qlobal məqsədi müəyyənləşdirildi.

F.Qurbanov vurğulayıb ki, Davamlı inkişafın 17 məqsədi içərisində 4-cü məqsəd belə ifadə olunub:

- Hərtərəfli və ədalətli təhsili təmin etmək və hamı üçün ömürboyu təhsil alma imkanlarını həvəsləndirmək.

Göründüyü kimi, davamlı inkişafın təmin olunması təhsil sistemi qarşısında çox mühüm vəzifələr qoyur.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strategiyasında “QÜDRƏTLİ DÖVLƏT VƏ YÜKSƏK RİFAH CƏMİYYƏTİ”nin qurulması hədəfində təhsilin qarşısında duran mühüm vəzifələr “3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı” bəndində öz əksini tapmışdır. Bununla yanaşı sənədin bütün bəndlərində bu və ya digər dərəcədə təhsil sisteminin rolu göstərilir.

Göründüyü kimi, milli təhsil sistemi dünyanın texnologiya yarışına maksimal dərəcədə qoşulmalıdır. Alimlər iddia edir ki, “biliklərin amortizasiyası” (dəyərinin azalması) 1,5 ildən sonra baş verir, bu səbəbdən onları daim yeniləmək və təkmilləşdirmək lazımdır.

Təhsil nazirinin müavini qeyd edib ki, XXI əsrin tələblərinə uyğun təhsildən danışarkən artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan “ömürboyu təhsil”ə xüsusi önəm verilməlidir.

Müasir texnologiyalar əsri, müxtəlif çeşidli informasiya bolluğu gələcəkdə rəqabət qabiliyyətli məhsulların yaradılmasında iştirak edəcək mütəxəssislərin hazırlanması üçün yeni spesifik tələblər irəli sürür.

Təsadüfi deyil ki, Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ölkə Prezidenti tərəfindən təsdiq edilmişdir. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin hazırlanması, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulmasını vurğulayan F.Qurbanov təhsilin bu istiqamətdə vəzifələrinin yeni mahiyyət və məzmun daşıdığını qeyd edib.

Nazir müavini xüsusi olaraq bildirib ki, ölkəmiz bu gün çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız azad edildi. Xalqımızın Vətən müharibəsində qazandığı möhtəşəm zəfər regionumuzda tamamilə yeni reallıqları yaratmaqla yanaşı, Azərbaycanın və bütövlükdə regionumuzun dayanıqlı inkişafı üçün yeni perspektivlər də açır. Ölkə iqtisadiyyatının 1/5-nin milli iqtisadi dövriyyəyə daxil olması və regional iqtisadi əməkdaşlıq üçün yaranan yeni imkanlar bunu deməyə əsas verir. İşğaldan azad olunmuş ərazilərimizdə “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin işlənməsi və reallaşdırılması, yaşıl enerji və müasir enerjiyə qənaət texnologiyalarından istifadə, təbii resursların istehsal proseslərinə cəlb olunmasında yüksək ekoloji standartların tətbiqi, yeni nəqliyyat dəhlizlərinin açılması kimi strateji məsələlərin elmi cəhətləri də bu gün Azərbaycan iqtisadçılarının gündəmində olan əsas mövzulardandır.

Qeyd edək ki, son illər UNEC-də ardıcıl həyata keçirilən tədbirlər, müvafiq təşviqlər, inkubasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri həm təhsil prosesinin təşkilinin və inkişafının, həm də akademik elmi araşdırmaların və mötəbər beynəlxalq tədbirlərin keçirilməsini keyfiyyətcə yeni səviyyəyə qaldırmışdır. İnanırıq ki, bu müsbət dəyişikliklər davam edəcək.

Çıxışının sonunda təhsil nazirinin müavini Firudin Qurbanov əminliyini ifadə edib ki, olduqca əhəmiyyətli mövzuya həsr olunan tədbirdə müzakirə edilən önəmli məsələlər, çıxışlarda səsləndirilən fikirlər və irəli sürüləcək təkliflər konfransın işinə öz töhfəsini verəcəkdir.

ESD təşkilat komitəsinin prezidenti Domagoj Cingula çıxışında qeyd edib ki, BMT-nin təşəbbüsü ilə meydana çıxan davamlı inkişaf konsepsiyası ayrı-ayrı ölkələrin inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sosial-fəlsəfi konsepsiyadır.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov da öz növbəsində qeyd edib ki, dayanıqlı inkişaf konsepsiyası üç əsas sahənin: iqtisadi, sosial və ekoloji sahənin birləşməsi nəticəsində yaranıb. Qeyd olunan sahələrin hər birinin bu anlayışa öz yanaşma tərzi mövcuddur. Dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün hər üç komponent balanslaşdırılmış şəkildə istifadə olunmalıdır. Bu üç sahənin bir-birinə təsir mexanizmi də çox önəmlidir.

Konfrans öz işini bölmə iclaslarında davam etdirib.

# HƏM əyləndilər öyrəndilər

## "Yay məktəbi"nə yekun vuruldu

İyunun 30-da "Yay məktəbi"nin başa çatması ilə bağlı bağlanış mərasimi keçirilib. Mərasimdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova, "Təmiz Şəhər" ASC-nin şöbə müdiri Səbuhi Babayev, müəllim və şagirdlər iştirak ediblər.

Mərasimdə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva Təhsil Nazirliyi tərəfindən irəli sürülən "Yay məktəbi" təşəbbüsünün uzun müddətli pandemiya şəraitində yaranan fasilələrin fəsadlarının aradan qaldırılması baxımından əhəmiyyətli olduğunu bildirib. Mehriban Vəliyeva "Yay məktəbi"ni şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, sosial fəaliyyətlərə cəlb olunması, eləcə də uşaqların intellektual və fiziki inkişafında yeni bir imkan olduğunu diqqətə çatdırıb.

Bağlanış mərasimində məktəblilər "Yay məktəbi"nə dair bölmələrdə çıxış edib, vətənpərvərlik mövzusunda mahnılar oxuyub, şeirlər səsləndirib və ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Mərasimdə müxtəlif mövzularda fotostendlərə, şagirdlərin əl işlərindən ibarət sərgilərə baxış keçirilib.



# İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində "Məzun günü"




İyunun 30-da İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində "Məzun günü" keçirilib.

Tədbirdə təhsil nazirinin müavini İdris İsayev, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov iştirak edib.

Təhsil nazirinin müavini İdris İsayev çıxış edərək "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin prioritet istiqamətlərindən söz açıb. Nazir müavini peşə təhsili sahəsində peşə hazırlığının səmərəliliyinin artırılması, işəgötürənlərin peşə təhsilinə inteqrasiyası və ölkə iqtisadiyyatı üçün rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasının vacibliyini qeyd edib.

İdris İsayev peşə təhsilinin ölkəmizin iqtisadiyyatına, davamlı sosial-iqtisadi inkişafına, səriştəli mütəxəssislərin yetişməsinə töhfə verməsi üçün peşə təhsili müəssisələrinin müasir infrastrukturla təmin olunmasının əhəmiyyətini diqqətə çatdırıb.

Nazir müavini çıxışının sonunda 2020-2021-ci tədris ilinin məzunlarını təbrik edib, onlara uğurlar arzulayıb.

Tədbirdə qeyd edilib ki, cari tədris ili üzrə mərkəzdə 140 tələbə məzun olub və onlardan 12 nəfəri müvafiq müəssisələrdə işlə təmin olunub.

Tədbirdə həmçinin Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbər şəxsləri, mərkəzin yaxından əməkdaşlıq etdiyi işəgötürən qismində çıxış edən şirkət nümayəndələri, fəxri məzunlar, müəllim və valideyn kollektivi iştirak edib.

Qeyd edək ki, 2020-2021-ci tədris ili üzrə Təhsil Nazirliyinin tabeliyindəki 72 peşə təhsili müəssisəsini 13 300-dən çox məzun bitirib.


Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Naxçıvan Dövlət Universiteti

Aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

1. *Təbiətşünaslıq və kənd təsərrüfatı*
2. *Tibb*
3. *Pedaqoji*

**Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. *Ümumi və nəzəri fizika*
2. *Xalq çalğı alətləri*
3. *Musiqi təlimi*
4. *İqtisadiyyat*
5. *Roman-german dilləri*
6. *Hüquq fənləri*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

**Ünvan:**

Naxçıvan şəhəri, Universitet şəhərciyi
Naxçıvan Dövlət Universiteti

**Telefon:**

(036) 545-23-66

**REKTORLUQ**



Azərbaycan Respublikası Təhsil Nazirliyi

## Azərbaycan Respublikasının Təhsil İnstitutu

2021-ci il üçün fəlsəfə və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul

**ELAN EDİR:**

Azərbaycan Respublikasının Təhsil İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2021-ci il tarixli 356 s nömrəli sərəncamı ilə təsdiq olunmuş Plan əsasında 2021-ci il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə dissertanturaya və doktoranturaya (əyani və qiyabi) qəbul elan edir.

Doktorant və dissertant hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun (5 iyun 2021-ci il tarixli 159 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına olunmuş əlavə və düzəlişlərlə) olaraq həyata keçirilir.

Qeyd edilənləri nəzərə alaraq, fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya sənəd qəbulu üçün 1-15 iyul 2021-ci il tarixləri nəzərdə tutulub.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslərin fəlsəfə fənni üzrə imtahanı 1, 2, 3, ixtisas imtahanı isə 9, 10 sentyabr 2021-ci il tarixlərində baş tutacaq.

Əlavə olaraq bildiririk ki, doktoranturaya sənəd qəbulunun "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. *Portal.edu.az* vasitəsilə müraciətlərin göndərilməsi 1 iyul saat 9:00-dan etibarən mümkün olacaq.

**Ətraflı məlumat üçün:**
(+99412) 493-82-71

**DİREKTORLUQ**



Qarabağ gündəliyi

# Dörd medallı QƏHRƏMAN Azərbaycan MÜƏLLİMİ

## Qazi müəllim Murad Feyziyev: “Müharibədən qalan izləri fəxrlə daşıyacağam”

⇦ Əvvəli səh.1

Prezident İlham Əliyev Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirən hərbi qulluqçuların bir qismini təltif edib. “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilənlərdən biri də Murad müəllim olub. Bununla da Füzulinin və Qubadlının işğaldan azad edilməsinə görə təltif edilən, “Cəsur döyüşçü” medallı zabitin qəhrəmanlığını dəyərləndirən medalların sayı 4-ə çatıb.

4 medallı qəhrəman Azərbaycan müəllimi həm də çox maraqlı müsahibdir. Oxucularımızı “Qarabağ gündəliyi”ndə Murad Feyziyevin insanı gah gülümsətən, gah da kövrək, ancaq qürur verən xatirələrə sürükləyən müsahibəsi ilə baş-başa buraxırıq:

### Nəslimizdə ilk oxuyan mən oldum

- Salyan şəhərində doğulub, burada böyümüşəm. 3 nömrəli (indiki 2 nömrəli) tam orta məktəbi bitirmişəm. Əlaçıydım, məktəbə ayaq basdığım ildən düz məzun olana qədər şəklim “Şərəf lövhəsi”ndə olub. Sonra məktəbi bitirib universitetə daxil oldum. Bakı Slavyan Universitetində Rus dili və Ədəbiyyatı ixtisası üzrə təhsil aldım. Nəslimizdə ilk universitet oxuyan mən oldum.

### Rus dili müəllimi yox, hərbi rəhbər oldu

- İkinci kursda oxuyarkən qərar verdim ki, həqiqi hərbi xidmətə əsgər kimi yox, zabit kimi gedəcəyəm. Çünki liderlik xüsusiyyətimin olduğunu hiss edirdim. 20-25 nəfəri idarə edə biləcək potensialı görürdüm özümdə.

2013-cü ildə həqiqi hərbi xidmətə başlayanda imtahan verib zabit kursuna qəbul olundum. Kursu uğurla başa vurub Goranboyda - cəbhə bölgəsində xidmətə başladım. 2014-cü il avqust döyüşlərində iştirak etdim.

Tağım komandiri kimi fəaliyyətim hərbi xidmət dövründə diqqət çəkdi. Xüsusi təyinatlı qüvvələrdə xidmət üçün seçildim, amma ailəm razı olmadı. Anam qarşıma elə şərtlər qoydu, elə sözlər dedi ki, o sözləri deyilməmiş kimi qəbul etmək mümkün deyildi. Hərbidə qalmaq üçün başqa şanslarım da oldu. Goranboyda hərbi hissənin idman xidməti rəisi təklif etdi ki, hərbi hissədə qalım. O təqaüdə çıxdıqdan sonra həmin vəzifəyə ən real namizəd olduğumu söylədi. Bir sözlə, hərbçi kimi qalmağım üçün səbəbim çox idi. Amma mane olan səbəblərim də vardı. Qardaşım I qrup əlildi. Onun mənə ehtiyacı var. Əgər həyatıma hərbçi kimi davam etsəydim, qardaşımın yanında ola bilməyəcəkdim.

2015-ci ildə xidmətimi başa vurub evimizə qayıtdım.

### Müəllimlikdə ilk addımlar

- Arzum hərbi rəhbər işləmək idi. İki arzumu birləşdirə bilərdim bununla. Həm məktəblilərlə işləyəcək, həm də hərb sənətinə olan həvəs və marağımı təmin edəcəkdim. Bu barədə rayon icra başçısına xahişlə müraciət etdim. İdmanda və hərbi xidmət zamanı əldə etdiyim uğurları, avqust döyüşlərində iştirakımı əsas gətirib hərbi rəhbər işləmək arzumu əsaslandırdım. O da müraciətimə müsbət baxdı və qısa zamanda, 2016-cı ilin sentyabrından 6 nömrəli tam orta məktəbdə hərbi rəhbər kimi fəaliyyətə başladım. Həmin tədris ilində diaqnostik qiymətləndirmə aparıldı. Bu barədə eşidəndə əvvəlcə narahat oldum. Heç bir hazırlığım olmadan test imtahanında uğur qazana bilməməkdən qorxurdum. Hazırlıqsız diaqnostik qiymətləndirməyə girdim və 30 bal yığdım. Nəinki müəllimliyə davam etdim, hətta 2019-cu ildə ən aktiv müəllim kimi təltif olundum.

### Kim sevirsə idmanı...

- İdman hələ məktəbdən sevimli məşğuliyyətim idi. Şahmat, kinq-boks, futbol həvəskarıydım. Birindən çıxıb o birinə gedirdim. Valideynlərim oxumağımı istədikləri üçün idmanla məşğul olmağımın əleyhinə idilər. Elə düşünürdülər ki, idman və başqa məşğuliyyətlər oxumağıma mane olacaq. Ancaq mən valideynlərimin müqavimətinə baxmayaraq, sevdiyim idman növləriylə məşğul olmağa da, dərs oxumağa da vaxt tapırdım. Xüsusən, kinq-boks üzrə rayon birincisiyəm. Universitetdən sonra isə rayonumuzda boks üzrə mərkəz açmaq istəyirdim. Bunun üçün müəllim işləyə-işləyə həftədə 3 dəfə Bakıya gedib, məşq edib geri qayıdırdım. Əvvəlcə “Dinamo” İdman Cəmiyyətinə, sonra “Qızıl əlcək” Boks Cəmiyyətinə getdim. Beynəlxalq yarışlara qatılmaq, qələbə qazanaraq lisenziya almaq istəyirdim. Ancaq məşqlərimizdən birində biləyimi zədələyərək bu xəyallarımın üstündən xətt çəkdim.

Müəllimliyə başlayandan sonra isə şahmat üzrə fəaliyyətimi genişləndirdim. Şahmatçı uşaqlar yetişdirməyə başladım. I qrup əlil qardaşıma da şahmat oynamağı mən öyrətmişəm. İndi Hümmət şahmat üzrə rayon birincisidi.

Anam futbol həvəskarı, atam tennis ustasıdır. Tennisi mən də yaxşı oynayıram. Oyunları izləyərək qısa müddətdə tennisi də öyrəndim və peşəkar tennislə məşğul olanlara belə qalib gəldim. Məktəbimizdə tennis həvəskarları var. Bu idman növü üçün də şərait yaratdıq və tennis həvəskarlarını topladıq. Məktəbimiz 10-12 ilin məktəbidi. Şəraiti yaxşıdır. Ancaq məktəbimiz mən burda müəllim işləyəndən sonra fəallaşıb. Əvvəllər adı olmayan, kənar qəsəbə məktəbi sayılırdı. Artıq bütün idman növlərində təmsil olunur və iştirakçısı olduğumuz yarışların əksəriyyətində qalib gəlirik. Qələbələrimiz, mükafatlarımız, hətta kubokumuz belə var.

Məktəbimizdə qısa müddət içərisində voleybol komandası da qurmuşuq.

### Çağırış

- O gün mənim üçün çox ağır gün idi. Yetirmələrimdən biri Səyyad Mövsümovu torpağa tapşırıb qayıtmışdım evə. Müharibə başlayandan bəri Səyyad rayonumuzun üçüncü şəhidiydi. O gün özüm də çağırış aldım. Dərhal hazırlaşdım və gecəylə yığışdıq. Bütün zabitlər yığışmışdı. Şəhid olan zabitlərin yerinə gedirdik. Məni də tağım komandiri göndərdilər. Ordumuz xeyli irələmişdi. Yenə Azərbaycan torpaqlarındaydıq, ancaq illərdir görmədiyimiz, işğal altında olan ərazilərimizdəydik. Ermənilər çox yüksək səviyyədə təmin olunmuşdular. Postlarını aldıqca malik olduqları imkanları görüb təəccüblənməmək mümkün deyildi. Biz meşələrlə, ən çətin yollarla kilometrlərlə məsafə qət edib, ermənilərin arxalarına keçdik, Xocavəndi, Hadrutu alıb sonra betonluq deyilən mövqeləri ələ keçirdik.

### “Başımı bağlayın, cəbhəyə qayıdıram!”

- Oktyabrın 12-də qruplar şəklində irəliləyir, dağıdılmış evlərin yarımçıq divarları arxasında gizlənməyə çalışırdıq. Daldalandığım həmin divarı da mərmi dağıtdı, dağıntıların altında qaldım. Başımda kaska, əynimdə zirehli geyim, yanımda da “Hadrut qartalı” kimi tanınan Camal olmasaydı, oradan sağ çıxmaq ehtimalım yoxuydu. Kömək gələnə qədər Camal məni danışdırdı, daha təhlükəsiz yerə keçirdi. Kaskanın qorumadığı yerdən başım partlamışdı. Qollarımda, ayağımda yaralar vardı. Xüsusi təyinatlılar məni arxaya apardılar. Ancaq orada çox dayanmadım. “Başımı bağlayın, cəbhəyə qayıdıram” dedim. Məni orada gözləyirdi əsgərlərim. Yaxşi ki, qayıtdım. Qayıtmağım ruh yüksəkliyi yaratdı. Sonra Qubadlının 6 kəndi uğrunda döyüşdük. Qələbələrimiz davam etdi. Xüsusi təyinatlı qüvvələr Hadrutu aldıqdan sonra hücum briqadası olsaq da, şəhərin müdafiəsi bizə tapşırıldı.

### 50 kilo yüklə 40 kilometr

- Tuğ kəndinə girəndə günortaydı. Dedilər, növbəti əməliyyat səhərisi olacaq və bizə həmin günün ikinci yarısında dincəlmək imkanı verdilər. Yaxşı dincələndən sonra Şuşaya doğru hərəkətə başladıq. Daşaltı və Şuşa əməliyyatlarında biz də Tehran Mənsimovun əmrinə verildik. Belimizdə 50 kilo yüklə meşələrlə, bilinməyən cığırlarla, dağlarla 40 kilometr irəlilədik. Çox yorulmuşduq. Polkovnik Tehran Mənsimov bizimlə söhbət apardı. İnsanın içərisindəki vətənpərvərlik hisslərini alovlandıran səsiylə, sözləriylə döyüş ruhumuzu daha da qaldırdı.

### Şəhid olsam...

- Bizi gözləyən əməliyyat hər birimiz üçün ölüm demək idi. Bu səbəbdən yenicə uşağı olan döyüşçümüzü də əməliyyatdan çıxartdıq. Ümumiyyətlə, bu əməliyyatın hər bir iştirakçısı xüsusi seçildi. 50 nəfər arasından 15 nəfər seçib bir qrup təşkil edilirdi. Seçilənlərin çəkisi, çəldliyi, sağlamlığı nəzərə alınırdı. Çünki Daşaltı və Şuşa əməliyyatı çəldlik tələb edirdi. Bir saniyəlik ləngimə şəhid demək idi. İtburnu kollarıyla fırlanacaq, özümüzü qoruya-qoruya irəliləyəcəkdik. Bu hücum əməliyyatında iştirak hər birimiz üçün təhlükəli olduğu qədər şərəfliydi. Qayıdacağımıza inanmadığımız üçün hər birimiz gedərkən biri-birimizlə halallaşdıq. Məktəbimizdə fiziki hazırlıqdan dərs deyən Rafiq müəllimlə yaxın münasibətimiz olduğu üçün onun nömrəsini döyüşçü dostuma verdim ki, şəhid olsam, xəbərimi məhz ona çatdırsın. İkimizin də gözlərimiz doldu. Çox ağır anlarıydı...

### Daşaltı əməliyyatı: Təbriz Xəlilbəylinin də qisasını aldıq

- Əməliyyat başlandı. 3 istiqamətdə hərəkət edəcək, Daşaltını mühasirəyə alacaqdıq. Daşaltı meşələrindən keçib qayalıqların altında olan kəndi görənə qədər uzun, təhlükəli yol keçdik. Daşaltı Şuşa əməliyyatı üçün çox önəmliydi. Xüsusən, bizim iştirak etdiyimiz təpə uğrunda döyüşün taleyindən çox şey asılı idı. Az qala hər iki əməliyyatı təhlükəyə atacaq pusquya düşdük. Meşədən açıqlığa çıxacaqdıq. Sən demə, düşmən bizi görürmüş. Snayperimiz Cəbiyevdə gecəgörmə cihazı vardı. Onun sayəsində açıqlıqda bizi gözləyən təhlükədən əvvəlcədən xəbər tutduq. Çıxmağımızı gözləyən düşmən də gecikdiyimizi görüb duyuq düşdü və olduğumuz yeri güllə yağışına tutdu. RPQ mərmiləri, tank güllələri üstümüzə yağış kimi yağırdı. 7 nəfərlə birlikdə saatlarla dayanmadan döyüşdük. O döyüşdə 4 uşaqlı ata olan qubalı bir silahdaşımızı itirdik. Erməni snayperi onu alnından vurdu. Hamımızın silahı bitmişdi, arxadan dəstək çatdı. Birnəfəsə qaçaraq bizə güllə çatdıran əsgər Hüseynov həyatımızı da, əməliyyatın taleyini də xilas etdi. Daşaltına sağdan və ortadan hücum mövqeyimizi tutub sol tərəfə yönəldik. Burada da mövqeyimizi müəyyənləşdirdikdən sonra mühasirəni tamamlayacaq və hücum üçün hazır olacaqdıq. Daşaltı ilə bağlı ən dəhşətli xatirələrimdən biri məhz orada, sol tərəfə hərəkət edərkən yaşandı. Tank əleyhinə minanın üstünə piyada əleyhinə mina basdırmışdılar. Biri-birinin ardınca 5 mina partladı. O səslər indi də qulağımdadı. Uğultu, ətrafı bürüyən toz-duman, qulaqbatıran inilti, hərənin bir tərəfə düşməsi, qulaq batıran qışqırıqlar... Bir dostumu xilas etməyə getdik, üstündə başqasının ayağı vardı. Ayağı görüb elə bağırırdı ki, onun deyil, başqasının ayağı olduğunu başa salana qədər sakitləşdirə bilmədik. Ayağı kəsilən döyüşçü dostumuzun isə nə illah etdiksə, qanaxmasını saxlaya bilmədik. O da şəhid oldu. Son nəfəsinə qədər ancaq anasından danışdı şəhid qardaşımız. Səsi, sözləri indi də qulağımdadı. Partlayış səsi eşidən kimi üzünü qoruyan, üzünə həssaslığı olan dostumuzun isə o gün üzü yandı. Başqa bir silahdaşımızın gözü çıxdı. Bir sözlə, cəmi 10 nəfər ordan tam salamat qurtara bildi. 5 nəfər şəhid oldu, qalan hamı yaralandı. Məcbur olub hücumu dayandırdıq, əvvəlcə yaralılarımızı geriyə qaytardıq. Onları necə geri qaytardığımız isə ayrıca bir dəhşətdir. Yenidən minaya düşməmək üçün torpağı dizimiz yerdə, əlimizlə yoxlaya-yoxlaya, mina axtara-axtara irəlilədik. Yaralılarımızın hamısını sağ-salamat arxaya çatdırıb sonra hücumu davam etdirdik. Daşaltına girib kənddəki bir ermənini belə sağ buraxmadıq.Beləcə, həm Daşaltı uğrunda gedən 10 saata yaxın döyüşdə itirdiyimiz qardaşlarımızın, həm də məşhur şairimiz Xəli Rza Ulutürkün qəhrəman oğlu, Daşaltı şəhidimiz Təbriz Xəlilbəylinin qisasını aldıq.

### Şuşa əməliyyatı

- Noyabrın 7-də Şuşa mühasirədə idi. Şuşaya qədər uzun, yorucu bir yol gəlmişdik. Burada artilleriyadan istifadə etmədik. Küçə döyüşləri getdi Şuşada, sözün əsl mənasında. RPQ7-lə tanklarını ya sepindən, ya da lüləyindən vurur, tankın arxasına gizlənən piyadaları isə öldürürdük. Şuşada 500-ə yaxın erməni öldürdük.

Artıq elə alışmışdıq ki, partlayış səsi eşidəndə heç əyilmirdik də. Amma Şuşada əsl döyüş oldu, döyüşçülərimiz əsl qəhrəmanlıq nümayiş etdirdi.

### Yaralıları aparan maşın vuruldu

- Növbəti əməliyyat Xankəndinə gedən yolun bağlanması idi. Əməliyyata başladıq. Bir az sonra səsindən anladım ki, artilleriya yaxınlaşır. Yerimi dəyişib təpənin o biri tərəfinə keçməyimlə həmin yeri vurdular. Meşəlik olduğundan yanğın başladı. Zərbənin təsiri ilə ağaca çırpılmışdım. Özümə gələndə ayaqlarımda istiliyi hiss etdim. Sən demə, çəkmələrim yanırmış. Ayaqqabıları çıxaranda gördüm ki, corab ayağıma yapışıb. Qopartmaq istəyərkən pəncəmin dərisi corabla birlikdə soyuldu. Əlimə isə qəlpələr girmişdi. Xüsusi təyinatlılar bizi oradan uzaqlaşdırdılar, maşına qoyub məntəqəyə göndərdilər. Məntəqəyə 200 metr qalmış bu dəfə də bizi aparan maşın vuruldu. Sağ əlim zədələndi. Müharibənin son günlərində artıq fosforlu silahlardan daha çox istifadə edirdilər. Ona görə əlimin vəziyyəti getdikcə pisləşdi, infeksiya başladı. Çirklənmə əlimi sıradan çıxarırdı. Onda həkimlər ikinci və beşinci barmağımın dırnaqlarını çıxartdılar. Digər zədə və yaralarım bir yana oldu, dırnaqlarım bir yana.

### İlk ermənini öldürəndə...

- İlk ermənini yaxın məsafədən Füzulidə öldürdüm. Müharibə dövründə qarşı-qarşıya gələrək öldürdüyüm erməninin sayı ümumilikdə 28 oldu. Onların təqribən 14-15 nəfərini Daşaltı və Şuşa əməliyyatlarında, 4-5-ni isə Füzulidə öldürmüşəm. Adam öldürmək asan deyil. Gözlərinin önündə tanıdığın, sevdiyin insanların ölümünü görmək isə erməni öldürməkdən daha çətindi. Xüsusən, müharibədəki dostluqlar tamamilə fərqli olur. Normal şəraitdə illərin dostundan daha yaxın olur müharibədəki dostlar. Məhz o cür dostların tikəsini yığmağa çalışmaq, son sözlərini dinləmək, kəsilmiş əl-ayağını, başını axtarmaq çox ağırdır. Artıq müharibə geridə qalıb. Amma bu ağırlığı, müharibənin dəhşətli izlərini hər birimiz düşüncələrimizdə, xatirələrimizdə daşıyırıq. Müharibədən ciddi kəllə-beyin travması ilə qayıtmışam. Bir gün yerə düşən məcməinin məni nə hala saldığını təsəvvür edə bilməzsiniz. Elə bildim mərmi partladı. Huşumu itirdim, vəziyyətim pisləşdi, uzun müddət özümə gələ bilmədim. Bəlkə bu izi ömrümün sonunadək gəzdirəcəyəm, bəlkə bir gün tamamilə sağalacağam, bilmirəm. Nə olacağından asılı olmayaraq, əsas odur ki, Vətənimiz artıq bütöv, başımız ucadır. Bütün tarixin qisasını ermənilərdən aldıq. Müharibədən qalan izləri isə fəxrlə daşıyacağam!

**Ruhiyyə DAŞSALAHLI**

# Məktəblilərimizin növbəti medal sevinci




## Beynəlxalq İnformatika Olimpiadasında

19-25 iyun 2021-ci il tarixlərində Sinqapurda 33-cü Beynəlxalq İnformatika Olimpiadası təşkil edilib.

90 ölkədən 351 şagirdin qatıldığı müsabiqədə məktəblilərimiz uğurla çıxış edərək 2 bürünc medal qazanıb. Belə ki, Gəncə şəhər M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Əziz Hüseynov və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 10-cu sinif şagirdi Səid Nəsibov müsabiqənin bürünc medalına layiq görülüblər.

Qeyd edək ki, məktəblilərimizin Beynəlxalq İnformatika Olimpiadalarına hazırlıq prosesi "Azercell Telekom" şirkətinin dəstəyi ilə həyata keçirilir.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3859 **Sifariş** 1194

**Məsul növbətçi:** O.Mustafayev

## Avropa Fizika Olimpiadasında




19-26 iyun 2021-ci il tarixlərində Latviyada Avropa Fizika Olimpiadası (EuPhO 2021) keçirilib.

Olimpiadada ölkəmizi təmsil edən şagirdlərimiz uğurla çıxış edərək 2 bürünc medal və 2 həvəsləndirici mükafat qazanıblar. Belə ki, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın XI sinif şagirdləri Sirac Yəhyazadə və Murad Bəşirov olimpiadanın bürünc medalına, "Gənc istedadlar" liseyinin X sinif şagirdi Rəfsan Həbibullayev və Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Rüfət Məmmədov olimpiadanın həvəsləndirici mükafatına layiq görülüblər.

Qeyd edək ki, şagirdlərimiz Təhsil Nazirliyi tərəfindən yaradılan Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin dinləyiciləridirlər.

Şagirdlərimizi təbrik edir və daha böyük uğurlar arzulayırıq!




## "Peşə təhsili və insan kapitalı" jurnalının növbəti sayı

"Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnalın 2021-ci il üçün 2-ci nömrəsi çapdan çıxıb. Jurnalın bu sayında pedaqogika bölməsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, pedaqogika üzrə elmlər doktoru, professor Müseyib İlyasovun "Yuxarı sinif şagirdlərinin peşə özünütəyininə pedaqoji rəhbərlik" adlı məqaləsi dərc olunub. Məqalədə yuxarı sinif şagirdlərinin özünütəyini məsələsinin ölkənin sosial-iqtisadi inkişafına müsbət təsiri ətraflı tədqiq olunub.

Bu bölmədə həmçinin Bakı Dövlət Universitetinin pedaqogika kafedrasının professoru, pedaqoji elmlər doktoru Həsən Bayramovun "Peşə təhsili sistemində baza peşə hazırlığının infokommunikativ kompetensiyaların formalaşdırılmasının prinsipləri, metodik təminatı və texniki-texnoloji məzmunu", Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, qabaqcıl təhsil işçisi Şahrza Ağayevin "Peşə pedaqogikası və reallıqlar", Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Lamiə Hacımuradovanın "Yeniyetmələrlə cinayət əməllərinə qarşı aparılan tədbirlərin aradan qaldırılması yolları", ADPU-nun nəzdindəki Azərbaycan Dövlət Pedaqoji Kollecin müəllimi Kəmalə Qayıbovanın "İstedadlı gənclərdə yaradıcı təxəyyülün inkişaf etdirilməsi məsələləri" mövzularında yazıları öz əksini tapıb.

Jurnalın bu sayında oxucular adları qeyd olunanlarla yanaşı, həmçinin iqtisadiyyat, texnika, idarəetmə, metodika və innovasiyalar bölmələri üzrə də bir-birindən maraqlı məqalələrlə, elmi, metodiki yazılarla tanış ola bilərlər.

Qeyd edək ki, təsisçisi Azərbaycan Respublikası Təhsil Nazirliyi olan "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal ildə 4 dəfə nəşr olunur. Jurnalda pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar verilir.

**Oruc MUSTAFAYEV**

## Etibarsız sayılır

**Bakı Slavyan Universiteti** tərəfindən 2012-ci ildə Təhməzova (Əbdüləhədova) Tamilla Elçin qızına verilmiş B-232817 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şəki Tibb Kolleci** tərəfindən 2012-ci ildə Hacıəhmədova Şəfa Nurhuda qızına verilmiş AA-010243 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Zaborskaya Oksana Yuri qızına verilmiş A-439808 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2013-cü ildə Kərimli Nuray Elçin qızına verilmiş AA-029307 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Gözbarax kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Qurbanova Pərvin Kamil qızına verilmiş B-106588 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Şərifzadə Həsən Əhməd oğluna verilmiş C-390236 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Mustafayeva Aişə Rasim qızına verilmiş C-390150 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2010-cu ildə Dadaşova Elmira Rahim qızına verilmiş BB-053527 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Bəşirova Nigar Çərkəz qızına verilmiş A-082747 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Əhmədov adına (Djerzinski) tam orta məktəbi 1986-cı ildə bitirmiş Süleymanova Bəsdi Oruc qızına verilmiş 205674 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 91 nömrəli orta məktəbi 2014-cü ildə bitirmiş Əliyev Əlimirzə Manaf oğluna verilmiş A-388512 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Dəyəqarabulaq kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Alməmmədova Bəsti Sayoz qızına verilmiş 023656 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2020-ci ildə Yəhyayeva Samirə Mahmud qızına verilmiş A-131278 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1998-ci ildə Quliyev Elbrus Davud oğluna verilmiş AB-I-047875 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1976-cı ildə Adıgözəlov Eldar Əbdülrəhman oğluna verilmiş B-I-008461 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** Giləzi qəsəbə tam orta məktəbi 2007-ci ildə bitirmiş Babayev Hacıağa Həcibaba oğluna verilmiş B-402786 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Atakişili kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əlifova (Zeynalova) Aidə Lətif qızına verilmiş A-102365 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sığırlı kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş Sərdarlı Yeganə Zakir qızına verilmiş 853184 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2017-ci ildə Manafov Kənan Bayram oğluna verilmiş A-129941 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Məlhəm kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Əliyev Nicat Babək oğluna verilmiş A-142535 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Rəsulov Rəsul Cəlaləddin oğluna verilmiş B-085903 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İmanova Çinarə Həsən qızına verilmiş B-089983 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Allahverdiyeva (Rzayeva) Şəbnəm Mail qızına verilmiş B-693141 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Paşazadə Nigar Vüqar qızına verilmiş E-342830 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin IX sinfini 2001-ci ildə bitirmiş Muradova Səbinə Məhəmmədəli qızına verilmiş B-420293 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Masazır kənd 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Zeynallı Hüseyn Nadir oğluna verilmiş E-167251 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 80 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Həbibov Taleh Xudaverdi oğluna verilmiş B-329997 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Texnikumu** (indiki Mingəçevir tibb kolleci) tərəfindən 1998-ci ildə Saadova (Əliyeva) Samirə Ələddin qızına verilmiş AB-II-034846 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Yeyinti Sənaye Texnikumu** tərəfindən 1974-cü ildə Əliyeva Zenfira Əliağa qızına verilmiş Щ-005006 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Muradxanlı kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Əliyeva Rəqsanə Camal qızına verilmiş A-549196 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 1996-cı ildə Mehdizadə Fuad Altay oğluna verilmiş AU-I-960137 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2004-cü ildə Tağıyev Aqil Ramiz oğluna verilmiş B-000352 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Mustafayeva Aliyə Nəcəfalı qızına verilmiş A-220463 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayon** Yuxarı Daşkəsən qəsəbə tam orta məktəbi 2003-cü ildə bitirmiş Nağıyeva Yeganə Vidadi qızına verilmiş 713184 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Xəlilov Kamil Kamal oğluna verilmiş B-607895 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kollecində** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2016 -cı ildə Babayeva Elminaz Aqil qızına verilmiş AA-086144 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Masazır kənd tam orta məktəb tərəfindən 2008-ci ildə Hümbətova Könül Vəlibəy qızına verilmiş A-390571 nömrəli dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2015-ci ildə Müzəffərova (Məhyəddinli) Şəfiqə Canbulad qızına verilmiş AA-062752 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirliyin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini, Bakı Slavyan Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdam Dövlət Sosial-İqtisadi Kollecinn direktoru Natiq Cavadov və kollektivi Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini, Bakı Slavyan Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin ibtidai sinif müəllimi Gövhər Novruzovaya atası

**HİDAYƏT TANRIVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin Azərbaycan dili müəllimi Zəkiyyə Əhmədovaya qardaşı

**NAZİM ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Rəqabətlilik naminə



## Bakı Mühəndislik Universiteti və İnha Universiteti arasında ikili diplom proqramı tələbələrimizə geniş perspektivlər açır

⇦ Əvvəli səh.1

Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Ölkəmizdə yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasına mühüm töhfə kimi qiymətləndirilən bu proqramın mühüm istiqamətlərindən biri Bakı Mühəndislik Universiteti və Cənubi Koreyanın İnha Universiteti arasında həyata keçirilən beynəlxalq ikili diplom proqramıdır. “Azərbaycan müəllimi” qəzetinə verdiyi müsahibədə BMU-İNHA ikili diplom proqramının direktoru Humay Cəfərli beynəlxalq layihənin icrası və əhəmiyyəti barədə öz fikirlərini oxucularımızla bölüşür.

- *İnha Universiteti və Bakı Mühəndislik Universiteti arasında ikili diplom proqramı və onun icrası barədə məlumat verməyinizi xahiş edirik. Bu proqrama kimlər müraciət edə bilər və hansı qəbul kriteriyaları var? Seçim necə aparılır?*

- Məlum olduğu kimi, 2020-ci il avqustun 28-də Bakı Mühəndislik Universiteti (BMU) ilə Cənubi Koreyanın İnha Universiteti arasında bakalavriat səviyyəsində dörd mühəndislik ixtisası - “İnşaat mühəndisliyi”, “Elektrik mühəndisliyi”, “Elektronika mühəndisliyi”, “İnformasiya və Kommunikasiya Texnologiyaları mühəndisliyi” istiqaməti üzrə ikili diplom proqramı imzalanmışdır. Proqram 3+1 modeli əsasında qurulmuşdur. Belə ki, ikili diplom proqramına əsasən tələbələr 3 akademik ili BMU-da, 1 akademik ili (sonuncu kursu) isə Cənubi Koreyanın İnha Universitetində təhsil alacaqlar. Cari proqram tam olaraq dövlət vəsaiti hesabına təmin olunur.

Proqrama ilk qəbul 2020/2021-ci tədris ilində həyata keçirilmişdir. Hazırda 2021/2022-ci tədris ili üçün Bakı Mühəndislik Universiteti (BMU) ilə Cənubi Koreyanın İnha Universiteti arasında ikili diplom proqramı üzrə “İnformasiya texnologiyaları”, “İnşaat mühəndisliyi”, “Elektronika mühəndisliyi” və “Elektrik mühəndisliyi” ixtisasları üzrə sənəd qəbulu həyata keçirilir. Proqramda Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanda hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplayan, Azərbaycan Respublikasının vətəndaşı olan abituriyentlər iştirak edə bilər. BMU ilə İnha Universitetinin birgə təşkil etdiyi müsabiqədən uğurla keçən və qəbul olan abituriyentlər ikili diplom proqramı çərçivəsində qeyd olunan 4 ixtisasdan birində öz seçimlərinə görə dövlət sifarişi əsasında təhsil ala biləcəklər.

### Ölkəmiz üçün brend ixtisaslar

- *İkili diplom proqramında nəzərdə tutulan ixtisaslar ölkəmiz üçün nə dərəcədə prioritetdir?*

- Qeyd olunmalıdır ki, BMU və İnha Universiteti arasında həyata keçirilən ikili diplom proqramı çərçivəsində nəzərdə tutulmuş “İnformasiya texnologiyaları”, “İnşaat mühəndisliyi”, “Elektronika mühəndisliyi” və “Elektrik mühəndisliyi” sahələri yüksək texnologiyalar, sənaye, ekologiya kimi prioritet ixtisas istiqamətlərinin əhatəliliyinin genişlənməsi baxımından tələbələrə ölkənin inkişaf prioritetlərinə uyğun olaraq geniş seçim imkanı yaradır. Hazırda nəinki təhsil sahəsi üçün mühəndis ixtisaslı kadrların yetişdirilməsi, həmçinin ölkəmizin təməl infrastrukturunun qurulması, habelə erməni işğalından azad olunmuş torpaqlarımızda infrastrukturun yaxşılaşdırılmasına böyük töhfələr verə və bu cəhətdən sözügedən müvafiq ixtisaslar ölkəmiz üçün bir brendə də çevrilə bilər.

- *Necə bilirsiniz, ikili diplom proqramı gənclərimizin əmək bazarında yer almasına, məşğulluğunun təmin olunmasına necə təsir edəcək, hansı imkanlar yaradacaq?*

- Müasir qlobal çağırışlara adekvat olaraq BMU-İNHA ikili diplom proqramı çərçivəsində nəzərdə tutulmuş İnformasiya texnologiyaları”, “İnşaat mühəndisliyi”, “Elektronika mühəndisliyi” və “Elektrik mühəndisliyi” sahələrində təhsil alan tələbələrin əmək bazarında iş tapmaları, həmçinin əmək bazarında istehsalatla kadr ixtisası arasındakı əlaqələrin inkişafı üçün də işlər nəzərdə tutulmuşdur. Bu baxımdan, BMU-İNHA ikili diplom proqramı tələbələrinin təcrübə yerlərinin müəyyənləşdirilməsi, məzunlarının işlə təmin edilməsi məqsədi ilə özəl və dövlət qurumları ilə əməkdaşlığın qurulması, həmçinin tələbələrin ixtisasları üzrə dövlət və özəl müəssisələrdə təcrübə keçmələri və işlə təmin olunması kimi imkanlar yaradılacaqdır.

### Proqram tam olaraq dövlət vəsaiti hesabına təmin olunur

- *İkili diplom proqramı çərçivəsində İnha Universiteti və Bakı Mühəndislik Universiteti tədris planlarının, mühazirə materialarının sinxronlaşdırılması və ya uyğunlaşdırılması necədir? Nəzərə alaq ki, tələbələr fərqli təhsil sistemlərinə malik ölkələrin 2 diplomunu alacaq...*

- BMU-İNHA ikili diplom proqramı çərçivəsində tədris planı hər iki universitetin müvafiq kafedra, rəhbər və professorları ilə qarşılıqlı şəkildə hazırlanmış və təsdiq edilmişdir. Hər akademik tədris ilinin başlanmasından öncə İnha Universiteti sillabusları, eləcə də tədris materialları barədə məlumatları Bakı Mühəndislik Universitetinə göndərir və BMU-da ikili diplom proqramı üzrə dərs deyən müəllim-professor heyəti tərəfindən həmin təlimatlara uyğunlaşdırılaraq tədris prosesinə başlanılır. Bundan başqa, hər semestrin sonunda müəllim portfolioları, BMU-da müəllimlər üçün sorğu, həmçinin tələbələr üçün sorğu, universitet rəhbərliyi ilə müsahibələr formasında İnha Universiteti təhsil üzrə monitorinq həyata keçirir.

### Milli kadr hazırlığına töhfə

- *İnha Universiteti ilə əməkdaşlıq BMU, onun tələbələri, gənclərimiz üçün nə kimi perspektivlər açır? Proqrama üz tutan azərbaycanlı tələbələrə nə kimi tövsiyələriniz var?*

- BMU-İNHA ikili diplom proqramı tam olaraq dövlət vəsaiti hesabına təmin olunur. Bu proqrama qəbul olan tələbələr 4 il müddətində iki müxtəlif nüfuzlu universitetin diplomlarını əldə edir və bu, gələcək karyera baxımından onlara geniş perspektivlər açır. Ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, insan kapitalının inkişaf etdirilməsi, strateji əhəmiyyət kəsb edən sahələr üzrə milli kadrların yetişdirilməsi baxımından proqram mühüm əhəmiyyət daşıyır. Proqrama üz tutan azərbaycanlı tələbələrə dövlət tərəfindən yaradılmış bu imkan vasitəsilə özlərini inkişaf etdirməyi, habelə Cənubi Koreya təhsil təcrübəsini yaxşı mənimsəyərək gələcəyin peşəkar mütəxəssislərinə çevrilməyi qarşılarına məqsəd qoymağı tövsiyə edirik.

### Proqram BMU-nun nüfuzuna mühüm təsir göstərəcək

- *Proqram əsasən bakalavriat pilləsini əhatə edir. Gələcəkdə bakalavrların adıçəkilən proqram çərçivəsində magistr və ya doktorantura təhsili alması imkanları barədə nə deyə bilərsiniz?*

- Hazırda BMU-İNHA ikili diplom proqramı “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində yalnız bakalavriat pilləsini əhatə edir.

- *Proqram ölkəmizin ali təhsil sisteminin rəqabətliliyinin artırılmasına, eləcə də BMU-nun nüfuzuna, beynəlxalq reytinqlərdəki mövqeyinə necə təsir edəcək?*

- Beynəlxalq ikili diplom proqramı ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq mühəndislik sahəsində Azərbaycanda 21-ci əsrin tələblərinə cavab verən yeni nəsil mütəxəssislər yetişdirməklə BMU-nun nüfuzuna mühüm təsir göstərəcək. Alimlərin qarşılıqlı əməkdaşlığı nəticəsində xarici professor-müəllim heyəti ilə birgə tədqiqatların həyata keçirilməsi, beynəlxalq səviyyədə əlaqələrin genişləndirilməsi Azərbaycan elmində müsbət nəticələrə gətirib çıxaracaq. Xarici universitet üzrə cəlb edilmiş professorlar Azərbaycanda işini başa çatdırıb öz ölkələrinə qayıtdıqdan sonra belə, yaradılan bu əlaqələrin faydasını görmək mümkün olacaq.

**Oruc MUSTAFAYEV**

# Təhsil Nazirliyi “Məşğulluq marafonu”na qoşulub

Təhsil Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan “Məşğulluq marafonu”na qoşulub.

“Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında keçirilən marafon çərçivəsində Təhsil Nazirliyi tərəfindən mövcud olan və ya yeni yaradılan vakansiyalar barədə məlumatlar müvafiq elektron platformaya daxil ediləcək. Həmin vakansiyalar şəhidlərimizin ailə üzvlərinin, müharibədə yaralanmış qazilərimizin iş yerləri ilə təminatı üçün istifadə olunacaq.




Qeyd edək ki, şəhid və qazi ailəsi üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə cari ilin 28 yanvar tarixindən etibarən Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müvafiq vakansiyalara işə qəbul prosesi dayandırılıb və həmin kateqoriyadan olan şəxslərə üstünlük verilməsi üçün tədbirlər həyata keçirilib.

İndiyədək Təhsil Nazirliyinə şəhid, qazi və Vətən müharibəsi iştirakçılarının ailə üzvləri tərəfindən işə qəbulla əlaqədar müraciətlər araşdırıldıqdan və vakant yerlərlə bağlı həmin şəxslərlə əlaqə saxlanılaraq rəylər alındıqdan sonra 450-dən çox müraciət müsbət həllini tapıb.

# Daha əlçatan, bərabər imkanlar



Bu günlərdə ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondu yaradılıb. Təhsil krediti hər tədris ili üzrə veriləcək. Kreditlərdən həm dövlət, həm də özəl təhsil müəssisələrində təhsil alan tələbələr istifadə edə bilər. Fondun yaradılması ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılanıb.

*Milli Məclisin deputatı Aydın Mirzəzadə:* “Belə bir Fondun yaradılması Azərbaycan cəmiyyətində çox böyük maraq və razılıqla qarşılandı. Uzun müddətdir ki, Milli Məclisdə və ayrı-ayrı ziyalıların çıxışlarında ödənişli təhsil alan gənclərin təhsilə əlçatanlığını təmin etmək üçün dövlətin bir mexanizminin yaradılması məsələsi vaxtaşırı irəli sürülürdü. Müxtəlif təkliflər irəli sürülürdü. Cənab Prezidentin sərəncamı ilə yaradılan Fond hər bir Azərbaycan vətəndaşına, eyni zamanda ödənişli əsaslarla təhsil alanların qayğılarına çox həssaslıqla yanaşıldığını göstərir. Nəzərə alaq ki, bu, gənclərimiz üçün çox böyük bir dəstəkdir. Fondun yaradılması gənclərin təhsil almasında dövlətin rolunun artdığını bir daha sübut edir”.

*Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov:* “Təhsil Tələbə Kredit Fondunun yaradılması ölkəmizdə aztəminatlı ailələr üçün təhsilin əlçatanlığını təmin etmək məqsədi daşıyır. Düşünürəm ki, Fond ölkəmizdə xeyli sayda gəncin təhsil almasına bilavasitə şərait yaradacaq. Nəzərə alaq ki, gənclərin təhsilə əlçatanlığının təminatı həm də onlar arasında rəqabət mühitinin formalaşmasına səbəb olacaq. Bütün bunlar eyni zamanda təhsilin keyfiyyətinə birbaşa təsir edəcək”.

*Pedaqogika üzrə elmlər doktoru Vidadi Orucov:* Cənab Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Fondun imkanlarından minlərlə ailələr faydalanacaq. Əminən ki, Fond hər kəs üçün təhsil almağa bərabər imkanlar yaradacaq. Təhsilin keyfiyyətinə və inkişafına təsir göstərəcək, gənclərin elmə olan marağını artıracaq”.

*Bakı Dövlət Universitetinin professoru Hikmət Əlizadə:* “Bu Fondun yaradılması Azərbaycanda təhsilin inkişafı istiqamətində mühüm rol oynayacaq. Dünyanın inkişaf etmiş ölkələrində adətən belə fondlar müxtəlif şirkətlər tərəfindən yaradılır. Ölkə Prezidenti cənab İlham Əliyev yenə də humanist addım ataraq belə bir Fondun yaradılmasına qərar verdi. Prezidentimiz həmişə olduğu kimi gənclərimizin təhsil almasına çox böyük həssaslıqla yanaşır”.

*Azərbaycan Texnologiya Universitetinin II kurs tələbəsi Cavid Cabbarlı:* “Bu xəbər tələbələr arasında böyük sevincə səbəb oldu. Tələbə yoldaşlarımız arasında təhsil haqqını ödəməkdə çətinlik çəkənlər var. Düşünürəm ki, artıq bu problem aradan qalxacaq. Ölkə Prezidentinin imzaladığı bu sərəncam tələbə olmaq arzusunda olan gənclərə stimul verəcək”.

*İki övladı ali məktəbdə ödənişli təhsil alan Cəlal Quliyev:* “Fondun yaradılması bir çox ailələrdə sevinclə qarşılanıb. Bizim ailədə də həmçinin. Övladımın biri Azərbaycan Tibb Universitetində, digəri isə Gəncə Dövlət Universitetində təhsil alır. Etiraf edək ki, iki tələbənin ödənişli əsaslarla təhsilini təmin etmək bir o qədər də asan deyil. Düşünürəm ki, biz də bu sosial layihədən yararlanacağıq. Bizlərə belə bir şəraiti yaratdığına görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm”.

**Niyazi RƏHİMOV**